# *"The Associated Press":* "Prezident İlham Əliyev Azərbaycanda sabitliyin təminatçısıdır"

ABŞ-ın aparıcı KİV-i Azərbaycanda keçirilən prezident seçkilərindən yazır. "The Associated Press" (AP) agentliyinin yaydığı informasiyada Azərbaycan Prezidenti İlham Əliyevin özünü sabitliyin təminatçısı kimi təsdiq etdiyi qeyd olunur.

Məqalədə xatırlanır ki, 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra Azərbaycan müstəqilliyini bərpa etdi. Müstəqilliyinin ilk illərində Azərbaycanda əsl xaos olub. Həmin dövrü görən Azərbaycan xalqı məhz indiki sabitliyi üstün tutur.

"Prezident İlham Əliyev sayı 10 milyona yaxınlaşan Azərbaycan xalqını Qərblə yaxınlaşdırıb. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rola malikdir", - deyə "Associated Press" yazır.

Qeyd edək ki, "The Associated Press" (AP) agentliyinin bu məlumatını ABŞ-ın aparıcı media orqanları olan "The Washington Post" və "abcnews" nəşrləri də təqdim edib.

Azərbaycan.- 2018.-13 aprel- S.10.